Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq, üzərimizə düşən başlıca vəzifələrdəndir.

Ümummilli lider Heydər Əliyev

AZƏRBAYCAN RESPUBLİKASININ QIRMIZI KİTABI

İKİNCİ NƏŞR

"Azərbaycan Respublikasının Qırmızı Kitabı - nadir və nəsli kəsilməkdə olan bitki və göbələk növləri", "Şərq-Qərb" nəşriyyatı, Bakı, 2013, 676 s.

"Azərbaycan Respublikasının Qırmızı Kitabı - nadir və nəsli kəsilməkdə olan fauna növləri", "Şərq-Qərb" nəşriyyatı, Bakı, 2013, 518 s.

By yaxınlarda Azərbaycan Respublikası "Qırmızı Kitabı"nın II nəşri çapdan çıxmışdır. "Qırmızı Kitab"Azərbaycan Respublikası ərazisində nadir və nəsli kəsilmək təhlükəsi olan vəhşi heyvan və yabanı bitki növlərinin vəziyyəti haqqında rəsmi dövlət sənədidir. O, Respublikanın bütün ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycana mənsub olan sektorunda heyvan və bitki növlərinin vəziyyəti, yayılması və mühafizəsi tədbirləri haqqında məlumatları özündə əks etdirir. Ölkə prezidenti cənab İlham Əliyevin 24 mart 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı"na əsasən Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ARETSN) və Azərbaycan Milli Elmlər Akademiyasına (AMEA) Azərbaycan Respublikasının "Qırmızı Kitabı"nın 2-ci nəşrinin təşkili tapşırılmışdır. "Qırmızı Kitabı"n layihəsi AMEA, ARETSN, ali təhsil müəssisələrinin və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin birgə səyləri nəticəsində hazırlanmışdır. "Qırmızı Kitab"ın formalaşdırılmasında AMEA-nın Botanika və Zoologiya İnstitutlarının alimlərinin son illərdə apardıqları intensiv elmi-tədqiqat işləri və çöl ekspedisiyalarının mühüm rolu olmuşdur. Layihə dəfələrlə geniş müzakirə olunmuş, təhlillər aparılmış, rəy və tövsiyyələr əsasında qüsurlar aradan götürülmüş və nəticədə kitab daha təkmil formada çap edilmişdir.

Azərbaycan Respublikası Qafqaz regionunda ən zəngin təbii sərvətlərə malik bir ölkədir. Bioloji müxtəlifliyinə görə də Azərbaycan dünyada özünəməxsus yerlərdən birini tutur, burada zəngin bitki və heyvan növləri cəmlənmişdir. Bu səbəbdən, Azərbaycan 2000-ci ildə biomüxtəliflik üzrə Beynəlxalq konvensiyaya qoşulmuşdur. Hazırda bu istiqamətdə mühüm tədbirlər görülür, xüsusi mühafizə edilən təbiət ərazilərinin şəbəkəsi genişləndirilir, dövlət təbiət qoruqları, yeni parklar yaradılır, həmçinin xüsusi mühafizə rejimi gücləndirilir. Eyni zamanda, bu sahənin hüquqi bazası möhkəmləndirilərək beynəlxalq hüquq normaları səviyyəsinə yaxınlaşdırılır.

Bioloji müxtəlifliyin qorunması Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı il 24 mart tarixli sərəncamı ilə "Azərbaycanda bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair" Milli Strategiya və Fəaliyyət Planı təsdiq edilmişdir. Həmin sənədlərə uyğun olaraq, nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin qorunması, xüsusi mühafizə olunan ərazilərdə inkişaf etdirilməsi, prioritet ekosistemlərin müəyyən edilməsi istiqamətində işlər aparılır.

Bütün dünyada vəhşi təbiət qorunur və öyrənilir. Bu baxımdan xüsusi qorunan təbiət ərazilərinin rolu böyükdür; onlar ekosistemlərin saxlanmasında əvəzsizdirlər. Məhz, xüsusi mühafizə olunan təbiət ərazilərinin fəaliyyəti nəticəsində nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin qorunub saxlanılması mümkün olur.

Qeyd etmək lazımdır ki, "Qırmızı Kitab" - məhv olma təhlükəsi altında olan heyvan, bitki və göbələk növləri haqqında məlumat toplanan kitabdır. Azərbaycan Respublikasının "Qırmızı kitab"ı - ölkə ərazisində nadir və nəsli kəsilmək təhlükəsi olan vəhşi heyvan və yabanı bitki növlərinin vəziyyəti haqqında rəsmi dövlət sənədidir. O, ölkənin bütün ərazisində, o cümlədən, Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektorunda heyvan və bitki növlərinin vəziyyəti, yayılması və mühafizəsi tədbirləri haqqında məlumatları özündə əks etdirir.

Azərbaycanda "Qırmızı kitab"ın tərtib olunması haqqında 1977-ci ildə qərar qəbul edilmişdir. Bitki və heyvanların kitaba salınması onların məhv olmasının qarşısını müəyyən qədər almışdır.

Təbiətin və təbii ehtiyatların mühafizəsinin qlobal strategiyasına (1980) uyğun olaraq, biosferdə öz davamlılığını və tamlığını itirən bütün növlərin biomüxtəlifliyinin qorunması müasir dövrün ən mühüm vəzifəsidir. Azərbaycanın ərazisi, onun landşaftı bioloji müxtəlifliyin yüksək səviyyəsi ilə seçilir. Ölkəmizin ərazisində bitən 4500-dən çox ali sporlu bitkilərin 200-ə qədəri Azərbaycanın, 950-si Qafqazın endemi hesab olunur. 30 min fauna növlərinin isə 15%-ni endemlər təşkil

edir.

Hələ yaxın keçmişdə respublikamızın bitki və heyvanat aləminin olduqca zəngin olması məlumdur. Azərbaycan müstəqillik qazandıqdan sonra ətraf mühitin və ekologiyanın mühafizəsi sahəsində dövlət siyasəti məhz Ulu Öndər Heydər Əliyevin prezidentliyi dövründə formalaşmağa başlamışdır. Hal-hazırda ölkədə bu istiqamətdə çox uğurlu siyasət həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin səyləri nəticəsində ətraf mühitin mühafizəsi sahəsində ekoloji siyasət yeni vüsət almış, onun formalaşması və həyata keçirilməsi üçün müvafiq dövlət proqramları işlənib hazırlanmışdır. Biomüxtəlifliyin öyrənilməsi biologiyanın fundamental məsələlərindən biridir. Respublikamızda biomuxtəlifliyin qorunması üzrə ilk təşəbbüs akademik Cəlal Əliyev tərəfindən göstərilmişdir. Təbiətdə növmüxtəlifliyinin itməsinə aparan ekoloji problemlərin araşdırılmasına həsr olunmuş tədqiqatlar müşahidə olunan dəyişikliklərin dinamikasının dərindən öyrənilməsinə yönəldilmişdir.

Azərbaycanın flora və faunasının növmüxtəlifliyi və yüksək səviyyədə endemizmi, hər şeydən əvvəl, ekoloji şəraitin müxtəlifliyi və müxtəlif dövrlərdə landşaftın biotik komponentlərinin inkişaf tarixi ilə əlaqədardır. XX əsrin ortalarından etibarən bioloji müxtəlifliyə və ekosistemlərə təhlükə törədən mənfi amillərin sayı artmış, insanların fəaliyyəti nəticəsində ekosistemlər deqradasiyaya uğramış, bir çox flora və fauna növləri məhv olmuş və ya onların nəsli kəsilmək təhlükəsi altında qalmışdır.

İnsanların əməli fəaliyyəti nəticəsində son 60-70 il ərzində bir çox qiymətli ağac cinslərindən (*Quercus macranthera, Acer trautvetterii, Betula pendula, B.litvinovii, Paeonia mlokosewitschii, Laurocerasus officinalis* və s.) ibarət olan meşələrin sahəsi xeyli azalmışdır. Həmçinin, bəzi növlərin çox az sahədə rast gəlinməsi və ya tamamilə məhv olması, respublikamızın əksər təbii zonalarında meşə örtüyünün antropogen dəyişilməsi və bitki qurşaqlarının əvəz olunması müşahidə olunur. Belə ki, dağ yamaclarında eroziya prosesinin güclənməsi, dağ ərazilərinin və çayların su rejiminin kəskin pisləşməsi baş verir. Buzlaşma dövrünün sonunda Bozdağ, Dibrardağ, Beşbarmaq dağ silsiləsinin bitki senozlarında *Erysimum, Xeranthemum, Stipa, Dianthus* cinslərinə aid olan növlər geniş yayıldıqları halda, hazırda onların çoxu sıradan çıxmışdır. Sənayenin, tikintinin, kənd təsərrüfatının sürətli inkişafı, əhalinin istirahəti üçün yeni ərazilərin istifadəsi nəticəsində müxtəlif bitkilərin həyat şəraiti dəyişilir, bəzən də bir çoxu sıradan çıxır. Digər tərəfdən, vaxtilə Azərbaycan ərazisində geniş rast gəlinən turan pələnginin tamamilə nəsli kəsilmiş, talış qırqovulu isə artıq yabanı təbiətdə məhv olmuşdur.

Növlərin qorunmasının ən səmərəli üsullarından biri "Qırmızı Kitab"ın təsis edilməsidir. Hələ 1977-ci ildə Azərbaycanın flora və faunasının zəngin genofondunun mühafizəsi üçün respublika höküməti Azərbaycan Respublikasının "Qırmızı Kitab"ının təsis edilməsinə dair qərar qəbul etmişdir. Ölkəmizdə bitkilərin mühafizəsi həm ölkə qanunvericiliyində, həm də 1989-cu ildə çap edilmiş Azərbaycan SSR-in bitki və heyvanlarının ilk "Qırmızı Kitab"ının I nəşrində təsbit edilmişdir. Bura alimlər tərəfindən Azərbaycan florasında mühafizəsi tələb olunan 140 növ bitki, faunasına isə 108 növ heyvan daxil edilmişdir. Azərbaycan Respublikasının "Qırmızı Kitab"ının I nəşrində verilmiş fauna və flora növləri 2 kateqoriya üzrə təsvir edilmişdir: yoxa çıxmaq təhlükəsi olan və nadir növlər. Birinci kateqoriyaya bir sıra mənfi amillərin təsiri nəticəsində (tələf olması və yaşadığı yerlərin dağıdılması) sayı və arealı əhəmiyyətli dərəcədə azalan və böhran səviyyəsinə çatan növlər daxil edilmişdir. Sayı azalmağa doğru meyl edən və kiçik sahələrdə rast gəlinən növlər isə nadir növlərə aid edilmişdir. Lakin bu meyarlara görə bölgü şərti olmuşdur və beynəlxalq təcrübə ilə təsdiq edilməmişdir. Bununla əlaqədar nadir ekosistemin və unikal genofondun qorunmasına kəskin tələbat yaranır. Son dövrə qədər biz nadir və nəsli kəsilmiş növlərin Beynəlxalq Təbiəti Mühafizə İttifaqının (IUCN) meyaralrına görə təsnif edilmiş və yenilənmiş siyahısına, nadir növlərin populyasiyalarının müasir vəziyyəti haqqında təsdiq edilmiş elmi materiallara, populyasiyaların həyat qabiliyyəti, sayı, yaş stukturu, yayılma sahəsi haqqında dəqiq məlumatlara malik deyildik.

Bununla yanaşı, birinci nəşrin çapından keçən 20 ildən çox müddət ərzində "Qırmızı Kitab"a daxil edilmiş bir cox nadir və nəsli kəsilmək təhlükəsi olan novlərin təbii ehtiyatları onların qorunması üçün həyata keçirilən tədbirlər (koçürülmə, iqlimləşdirmə və s.) nəticəsində bərpa olunmusdur. Digər tərəfdən, Azərbaycan flora və faunası üçün xarakterik olan bir çox novlərin sayı azalmış və nəsli kəsilmək təhlukəsi yaranmışdır. Azərbaycan Respublikasının "Qırmızı Kitab"ının hər 10 ildən bir çap olunması ölkə qanunvericiliyində nəzərdə tutulmuşdur. "Qırmızı Kitab"ın I nəşri 1989-cu ildə çap olunmuş və sonrakı illərdə yeni nəşrin işlənməsi zərurəti yaranmışdır. Azərbaycanın "Qırmızı Kitab"ının yeni – ikinci nəşri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 iyul 2000-ci il tarixli 125 saylı Qərarı olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 24 mart 2006-cı il tarixli 1368 saylı Sərəncamı ilə "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı" təsdiq edilmiş və onun 1.1.3-cü bəndinə əsasən "Qırmızı Kitab"ın II nəşrinin çapı 2009-cu ildə nəzərdə tutulmuşdur. Son illərin tədqiqatları nəticəsində ölkə florasına yeni növlər əlavə olunmuş və bir sıra nomenklatur dəyişikliklər edilmişdir.

Azərbaycanın "Qırmızı Kitab"ının ikinci nəşri çox arzuolunan bir haldır. Hazırda akademik Cəlal Əliyevin rəhbərliyi altında respublika ərazisində yayılmış nadir və nəsli kəsilməkdə olan bitki, göbələk (I cild) və fauna (II cild) növlərinin tədqiqi üzrə nəticələri əks etdirən "Azərbaycan Respublikasının Qırmızı Kitabı" (ikinci nəşr) hazırlanmış və dərc edilmişdir. 300 ali və ibtidai bitki, həmçinin göbələk və 223 fauna növü, onların yayılması, sayı və azalma tendensiyaları haqqında məlumatlar ilk dəfə olaraq kitaba daxil edilmiş, onların bioekoloji və fitosenoloji xüsusiyyətləri, məhdudlaşdırıcı amillər və mühafizə tədbirləri qeyd olunmuşdur. GİS sisteminin istifadəsilə (ArcGIS10 proqramı) növlərin yayılması üzrə xəritələr tərtib edilmiş və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının (IUCN) kateqoriya və meyarlarına uyğun olaraq onların təbiətdə saxlanma statusunun müasir qiymətləndirilməsi aparılmışdır. "Qırmızı kitab"ın tam formalaşdırılması son illər ərzində aparılan fəal tədqiqat işləri hesabına mümkün olmuşdur, AMEA-nın Botanika və Zoologiya İnstitutlarının mütəxəssisləri tərəfindən nadir, nəsli kəsilməkdə olan və endem bitki və heyvan növlərinin tədqiqi üzrə son illər intensiv monitorinqlər keçirilmiş, onların beynəlxalq səviyyədə müasir qorunma statusu müəyyənləşdirilmişdir.

"Qırmızı kitab"ın II nəşrində respublika flora və faunasının qorunmağa ehtiyacı olan növləri haqqında məlumat verilir. Siyahıya daxil edilmiş 300 növün 266-sı ali bitkilərə, 20-si ibtidai (6 yosun, 13 şibyə və 1 mamır) bitkilərə və 14-ü göbələk növlərinə aiddir. Ali bitkilərin arasında Plaunkimilər – 1 növ, Qatırquyruğukimilər – 1 növ, Qıjıkimilər – 4 növ, Çılpaqtoxumlular - 4 növ, İkiləpəli örtülütoxumlular – 256 növ təşkil edir. 223 fauna növləri içərisindən respublikamızın hidrofaunasına daxil olan 1 növ Oligochaeta, 1 növ Crustacea, 1 növ Mollusca, 71 növ Insecta, 6 növ Amphibia, 14 növ Reptilia, 9 növ Pisces, 72 növ Aves, 42 növ Mammalia sinfinə aiddir. Qeyd etmək lazımdır ki, materialların tərtib edilməsində Respublikanın bir sıra ali məktəb və ixtisaslaşmış qurumlarının, nazirliklərin, ictimai təşkilatların mütəxəssisləri də iştirak etmişdir.

Təhlükə dərəcəsinin qiymətləndirilməsi Beynəlxalq Təbiəti Mühafizə İttifaqı (IUCN) tərəfindən qəbul edilmiş kateqoriyalar və kriteriyalar sistemi - itmişlər (EX), kritik vəziyyətdə olanlar (CR), zəiflər (VU), nəsli kəsilməkdə olanlar (EN), təhlükəli vəziyyətə yaxın olanlar (NT), daha az təhlükəli vəziyyətdə olanlar (LC), informasiya çatışmazlığı (DD) əsasında həyata keçirilmişdir.

IUCN-nin qaydalarına uyğun olaraq, kateqoriyalar yalnız yabanı növlərin populyasiyaları üçün onların təbii arealı çərçivəsində təyin edilməlidir. Növlərin nəslinin kəsilməsi mümkün olan prosesdir. Ona görə də növün nəslinin kəsilməsinin yüksək risk kateqoriyasına aid edilməsi onun təbiətdə nəslinin kəsilməsinin yüksək ehtimallığını ifadə edir. Yalnız zamana görə yüksək risk kateqoriyasına aid edilmiş növlərin əksəriyyətinin daha aşağı risk kateqoriyasına aid edilən növlərə nisbətən yaxın zamanda nəslinin kəsilmə ehtimallığı (onlar üçün səmərəli mühafizə tədbirləri tətbiq edilmədiyi

təqdirdə) da eynilə yüksəkdir. Növlərin "kritik təhlükə həddində olanlar" (CR), "nəsli kəsilmək təhlükəsində olanlar" (EN) və "nəsli kəsilməyə həssas olanlar" (VU) kateqoriyalarına aid edilməsi üçün miqdari meyarlar şkalası mövcuddur.

Növün coğrafi yayılma ərazisində olan populyasiyaların hazırkı statusu haqqında dəqiq məlumatlar əldə etmək üçün Qırmızı siyahının ideal qiymətləndirilməsi tam, sistematik çöl icmalına əsaslanmalıdır. Praktiki olaraq bu nadir hallarda mümkün olduğundan qiymətləndirmə, ehtimal ki, herbari və icmal məlumatları və ekspert bilgilərinin istifadəsindən asılı olaraq qalır və Qırmızı siyahı növlərinin qiymətləndirilməsi zamanı kateqoriyanın təyin edilməsi üçün obyektivlik, şəffaflıq və dəqiqliyi artıran 5 kəmiyyət meyarı tətbiq edilir. A meyarı populyasiyaların ölçülərinin keçmişdə, indi və gələcəkdə azalmasına; B meyarı azalan və/və ya müstəsna dəyişmələrlə davam edən fraqmentləşmə ilə birlikdə sahənin coğrafi ölçüsünə; C meyarı bir yarımpopulyasiyada böyük nisbətdə və/və ya müstəsna dəyişmələrlə azalmaqda davam edən populyasiyanın kiçik ölçülərinə; D meyarı populyasiyanın çox kiçik və ya məhdud ölçüsünə və E meyarı itmə riskinin keyfiyyət təhlilinə əsaslanır. Qırmızı Siyahının qiymətləndirmə nəticələri səlahiyyətli orqanlar tərəfindən yoxlanıldıqdan sonra IUCN-nin məlumat bazası www.redlist.org vasitəsilə istifadə imkanı yaradılır.

"Qırmızı siyahı" növləri nəzərdə tutulduqda "nadir" və "endem" anlayışları fərqləndirilməlidir. Nadir növlər aşağıdakı xüsusiyyətləri əks etdirir: təbii olaraq dar coğrafi ərazidə bitir, bir və ya az xüsusi yayılma ərazilərini tutur, öz ərazisində yalnız kiçik populyasiyalar əmələ gətirir. Lakin endem növ təbii şəkildə ölçüsü dar və ya nisbətən geniş ola bilən yalnız bir coğrafi ərazidə bitir. Bütün endem növlər nadir deyil, həmçinin bütün nadir növlərin də endem olmaları mütləq deyildir. Nadir və endem növləri itmə təhlükəsi ilə əlaqələndirən mülahizə xüsusi maraq kəsb edir. Nadir və endem növlərin itməyə meyllilik səbəbinin müəyyənləşdirilməsi bioloji konservasiya strategiyasının yaradılması üçün əsas bazanı təmin edir. Beləliklə, bir sıra nadir və/və ya endem növlər onların itməsinə gətirib çıxaran bir və ya bir neçə xüsusiyyətləri özündə saxlayır: 1) dar (və yeganə) coğrafi zona; 2) yalnız bir və ya az populyasiya; 3) populyasiyanın kiçik ölçüsü və az genetik dəyişkənlik; 4) insanlar tərəfindən hədsiz istifadə; 5) populyasiyanın ölçüsünün azalması; 6) aşağı reproduktiv potensial; 7) xüsusi ekoloji məkana tələbat; 8) ətraf mühit təsirlərinə davamlı stabil böyümə. İnsanın müxtəlif fəaliyyəti nəticəsində nadir və/və ya endem növlərin yayılma əraziləri pozulduğu və/və ya fraqmentləşdiyi zaman digər növlərlə müqayisədə onlar daha böyük sürətlə itməyə meylli olaraq populyasiyalarının sahə və ölçülərinin paylanması azalır. Genetik saxlanmağa yönəlmiş fəaliyyətdə yuxarıda qeyd edilən xüsusiyyətlərə malik növlərə üstünlük verilməli, onlar daha diqqətlə müşahidə edilməli və qorunmalıdır.

"**Bioloji, ekoloji və fitosenoloji xüsusiyyətləri**" bölməsində növlərin ekologiyası və onların səciyyəvi bioloji xüsusiyyətləri, istifadəsi haqqında məlumatlar verilir.

"**Yayılması**" bölməsində növlərin arealı imkan daxilində tam xarakterizə olunmuşdur. Təbii ki, onların Azərbaycanda yayılması haqqında məlumatlar daha ətraflı verilir. Bu zaman bir qayda olaraq, növlərin bitdikləri ərazinin inzibati vahidi göstərilir. Xülasəli və dəqiqləşdirici xəritələr respublikada taksonların arealları haqqında təsəvvür yaradır, lakin konret olaraq yerli mühafizə tədbirlərinin işlənilib hazırlanmasında xüsusi işlərdə verilmiş daha dəqiq xronoloji materiallara, yaxud da herbari kolleksiyası məlumatlarına mütləq əsaslanmaq lazımdır.

«**Sayı və tendensiyası**» bölməsində nisbətən daha yaxşı öyrənilmiş bəzi növlər üçün onların populyasiyalarının vəziyyəti, sayca dəyişməsi, ayrı-ayrı məskunlaşma yerlərinin itməsi tendensiyaları və eləcə də (xüsusi hallarda) bu vəziyyətə gətirib çıxan səbəblər haqqında məlumatlar verilmişdir. Bir çox bitkilər təhlükədə olduğu və kifayət qədər öyrənilmədiyindən bu qisimdən olan məlumatlar təəssüf ki, heç də bütün növlər üçün mövcud deyildir.

"**Məhdudlaşdırıcı amillər**" bölməsində taksonların sayının azalmasına, onların bitdikləri yerlərin pozulmasına və eləcə də nadir növlərin mövcud olması üçün potensial

təhlükə yaradan istər təbii, istərsə də antropogen amillərin xarakterizə edilməsinə cəhd göstərilmişdir.

"**Mühafizə tədbirləri**" adlı Qırmızı Kitabın ən vacib bölməsində həmin kitaba daxil edilmiş növlərin mühafizəsinin qəbul olunmuş və xüsusilə zəruri tədbirləri haqqında məlumatlar öz əksini tapmışdır. Tərtibçilər bu və ya digər növlərin rast gəlindiyi milli parkları, qoruqları və yasaqları qeyd etməyə çalışmışlar, lakin zəruri olan bütün materiallara malik olmadıqlarından müəyyən çatışmazlıqların olması qaçılmazdır.

Bir sıra növlər üçün tam aydın şəkildə, digərləri üçün isə ümumi formada zəruri mühafizə tədbirləri tövsiyə edilmişdir. Konkret mühafizə tədbirləri yerlərdə yaranmış vəziyyətin nəzərə alınması şərtilə, çox vaxt xüsusi əlavə tədqiqatlardan sonra işlənilib hazırlanmalıdır və təbii ki, bunların tam və bütün təfərrüatı ilə “Qırmızı kitab”da öz əksini tapması mümkün deyil. Bitkilərin bitmə yerlərinin şəraiti saxlanılmadan onların mühafizəsinin təşkili mümkün olmadığından əksər növlər, xüsusilə CR, EN, VU statusu kateqoriyalarına aid edilmiş növlər üçün qoruqlar, yasaqlıqlar, təbiət abidələri kimi qorunan təbii ərazilərin yaradılması təklif edilmişdir. Bioloji müxtəlifliyin qorunub saxlanılmasında xüsusi mühafizə olunan təbiət ərazilərinin rolu əvəzedilməzdir. 2003-cüilədək Azərbaycanda bir dənə də Milli Park olmadığı halda qısa bir dövr ərzində Respublikamızda 8 Milli Park (Akademik Həsən Əliyev adına Zəngəzur, Şirvan, Ağ göl, Hirkan, Altıağac, Abşeron, Şahdağ, Göy-göl) və 4 Dövlət Təbiət Qoruğu (Şahbuz, Eldar Şamı, Bakı və Abşeron Yarımadasının Palçıq Vulkanları qrupu, Korçay) yaradılmış və Xüsusi Mühafizə olunan təbiət ərazilərinin sahəsi artırılaraq 4.5%-dən 10.2%-ə çatdırılmışdır. Hal-hazırda, flora və faunanın qorunub saxlanılması və davamlı istifadəsi üçün ölkədə 11 Dövlət Təbiət Qoruğu və 8 Milli Park mövcuddur və yeni qorunan ərazilərin yaradılması istiqamətində aparılan işlər davam etdirilir. Müstəqillik dövrünün əvvəllərində Azərbaycanda meşə sahələrinin azalma tendensiyası müşahidə edilirdi. Hazırda yaşayış ərazilərinin qazlaşdırılması, bərpa olunan enerji mənbələrindən istifadə ağacların oduncaq məqsədilə kəsilməsini əhəmiyyətli dərəcədə azaltmışdır. Həyata keçirilən məqsədyönlü tədbirlər və aparılan intensiv meşəsalma işləri nəticəsində meşələrin azalma tendensiyasının qarşısını almaq mümkün olmuşdur. Belə ki, beynəlxalq ekspertlər də Azərbaycanın meşə fondunun 0,4% artmasını təsdiq etmişlər. Ümümiyyətlə, Azərbaycanda təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsi nəticəsində 43 xüsusi qorunan və ölkə ərazisinin 10%-ni təşkil edən təbiət ərazi vahidi (mili parklar, dövlət təbiət qoruqları, yasaqlıqlar) yaradılmışdır.

Azərbaycan Hökuməti ölkənin bioloji müxtəlifliyinin mühümlüyünü nəzərə alaraq müxtəlif qanunvericiliklər təyin etmişdir. Ölkənin biomüxtəlifliyinin qorunması və istifadəsini tənzimləyən bir neçə qanun mövcuddur: “Bitkilərin mühafizəsi haqqında Qanun” (1997), «Heyvanlar aləmi haqqında» (1999) “Ətraf mühitin mühafizəsi haqqında Qanun” (1999), “Ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən istifadə haqqında Qanun” (1992), “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında Qanun” (2000),“Meşə məcəlləsi” (1997).

Təbii ki, “Qırmızı Kitab”ın tam formalaşdırılması son illər ərzində AMEA-nın Botanika və Zoologiya İnstitutlarında aparılan intensiv elmi-tədqiqat işləri və çöl ekspedisiyaları hesabına mümkün olmuşdur. Bununla yanaşı CEPF və IUCN (2006-2009) tərəfindən maliyyələşdirilən “Qafqazın endem bitkilərinin qorunması” üzrə Beynəlxalq layihənin, Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun (EİF) dəstəyilə (2010-2011) “Azərbaycanın nadir və nəsli kəsilməkdə olan bitki və göbələk növlərinin statusunun qiymətləndirilməsi” layihəsinin nəticələri əsasında və dünyanın bir çox nüfuzlu universitetləri və təşkilatları ilə unikal əmakdaşlıqda çox qısa zamanda mühüm yeni məlumatların toplanılması və sistemləşdirilməsi, həmçinin Respublikanın nadir və nəsli kəsilməkdə olan növlərinin əlavə monitorinqinin keçirilməsi mümkün olmuşdur.

Ayrı-ayrı növlər üzrə xülasələrin tərtibatçıları arasında AMEA-nın Botanika və Zoologiya İnstitutlarının əməkdaşları ilə yanaşı, Respublikanın müxtəlif universitetlərinin və Akademiya təşkilatlarının, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, bir sıra Milli Parkların əməkdaşları da vardır.

Növlərin nadir orijinal fotoşəkillərini təqdim etmiş, eləcə də dəyərli elmi məsləhətləri və bilavasitə metodik vasitələrlə yardım etmiş xarici həmkarlarımızın iştirakı xüsusi qeyd edilməlidir.

"Azərbaycanın Qırmızı Kitabı"nın II nəşri, şübhəsiz ki, bir sıra çatışmazlıqlar və texniki qüsurlardan da azad deyil. "Qırmızı kitab"lar mütəmadi olaraq dəqiqləşdirilməli və yenidən nəşr edilməli olduğundan, redaksiya heyəti kitabın təkmilləşdirilməsi üçün əlavə növlərin daxil edilməsi və zənginləşdirilməsi, eləcə də dərc olunan materialların strukturunun yaxşılaşdırılması baxımından mütəxəssis alimlər tərəfindən konkret təkliflərin veriləcəyinə ümid edirlər.

"Qırmızı Kitabı"n hazırkı nəşrinin tərtib olunmasında iştirak edən redaksiya üzvləri və müəllif heyəti kitabın nəşrinin respublikanın bitki və heyvanat aləminin mühafizəsinin gücləndirilməsinə, onun öyrənilməsi sahəsində elmi tədqiqatların dərinləşməsinə kömək edəcəyinə, son nəticədə ölkəmizin təbii sərvətlərinin gələcək nəsillər üçün qorunub saxlanılmasına imkan verən Azərbaycan Konstitusiyası ilə müəyyənləşdirilmiş mühüm məsələlərin həlli yolunda irəliyə doğru atılmış bir addım olacağına böyük ümid bəsləyirlər.

Validə Əli-zadə
b.e.d., prof., AMEA Botanika İnstitutunun direktoru

İlham Ələkbərov
b.e.d., prof., AMEA-nın müx. üzvü, AMEA Zoologiya İnstitutunun direktoru

«КРАСНАЯ КНИГА» АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

ВТОРОЕ ИЗДАНИЕ

"Красная книга Азербайджанской Республики - редкие и исчезающие виды растений и грибов", Издательский дом "Западо-Восток", Баку, 2013, 676 с.

"Красная книга Азербайджанской Республики - редкие и исчезающие виды фауны", Издательский дом "Западо-Восток ", Баку, 2013,518 с.

Недавно было опубликовано второе издание "Красной книги" Азербайджанской Республики. "Красная книга" - это официальный государственный документ о статусе редких и находящихся под угрозой исчезновения видов животных и растений Азербайджанской Республики. В ней отражена информация о состоянии, распространении и мерах по охране видов животных и растений на территории всей Азербайджанской Республики, включая принадлежащий ей сектор Каспийского моря. В соответствии с «Планом действий и национальной стратегией по сохранению и устойчивому использованию биологического разнообразия Азербайджанской Республики", утвержденным указом президента страны господина Ильхама Алиева от 24 марта 2006 года, Министерству экологии и природных ресурсов Азербайджанской Республики (МЭПРА) и Национальной Академии наук Азербайджана (НАНА) было поручено организовать 2-е издание «Красной книги» Азербайджанской Республики. Проект "Красной книги" был разработан в результате совместных усилий НАНА и МЭПРА, а также представителей организаций гражданского общества и высших учебных заведений. Интенсивные исследования и полевые экспедиции последних лет, проведенные учеными Институтов ботаники и зоологии НАНА, сыграли важную роль в формировании данного издания «Красной Книги». В результате широких обсуждений проекта, многократного рассмотрения и устранения недостатков в соответствии с предложенными рекомендациями, книга была опубликована на высокопрофессиональном уровне.

Валида Али-заде,
д.б.н., проф., директор Института НАНА

Ильхам Алекперов,
д.б.н., проф., чл.-корр. НАНА, директор Института зоологии НАНА

THE "RED BOOK" OF THE AZERBAIJAN REPUBLIC

SECOND EDITION

"Red Book of the Azerbaijan Republic – rare and endangered species of plants and fungi", "East-West" publishing house, Baku, 2013, 676 p.

"Red Book of the Azerbaijan Republic – rare and endangered species of fauna", "East-West" publishing house, Baku, 2013, 518 p.

Recently the second edition of the "Red Book" of the Azerbaijan Republic has been published. The "Red Book" is an official state document about the rare and endangered species of plants and animals of the Azerbaijan Republic. The book contains information on status, distribution and efforts to protect the plant and animal species throughout the republic, including the sector of the Caspian Sea belonging to Azerbaijan Republic. According to "The National Strategy and Action Plan on Protection and Sustainable Use of the Biodiversity" approved by the Decree of the President of Azerbaijan Republic Mr. Ilham Aliyev on March 24, 2006, the Ministry of Ecology and Natural Resources of the Azerbaijan Republic (MENRAR) and Azetbaijan National Academy of Sciences (ANAS) were entrusted to organize the 2nd edition of the "Red Book". The "Red Book" project was developed as a result of the joint efforts of ANAS, MENRAR and representatives of higher education institutions and civil society organizations. The recent intensive researches and field expeditions conducted by scientists of the Institute of Botany and the Institute of Zoology, ANAS, played an important role in the compilation of the "Red Book". As a result of the broad discussions of the project, analyses and corrections based on the suggested recommendations, the book was published on a high professional level.

Prof. Valida Ali-zade
director of the Institute of Botany, ANAS

Prof. Ilham Alekperov
director of the Institute of Zoology, ANAS